# I. ÜMUMİ MÜDDƏALAR

## 1. Azərbaycan Ağırlıqqaldırma Federasiyası ictimai birliyinin hüquqi statusu və fəaliyyət prinsipləri

1.1. "Azərbaycan Ağırlıqqaldırma Federasiyası" ictimai birliyi (bundan sonra – AAF adlandırılacaq) ümumi maraqlar əsasında birləşmiş, könüllülük, üzvlərinin hüquq bərabərliyi prinsipləri əsasında yaradılan, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvlərinin arasında bölməyən qeyri-hökumət təşkilatıdır və fəaliyyəti Azərbaycan Respublikasının ərazisini əhatə edir.

1.2. AAF Azərbaycan Respublikası Ədliyyə Nazirliyində "Azərbaycan Respublikası Ağır Atletika Federasiyası" ictimai birliyi adı altında 13 oktyabr 1993-cü il tarixdə 441 nömrə ilə qeydiyyata alınmışdır.

1.3. AAF öz fəliyyətini bərabərlik, qanunilik, aşkarlıq, könüllülük və özünüidarəetmə prinsipləri əsasında qurur, öz fəaliyyətində siyasi və dini məsələlərdə birtərəf mövqe tutur, siyasi, dini, cinsi, etnik, irqi və ya hər hansı bir formada ayrı-seçkiliyə yol vermir.

1.4. AAF qeyri-müəyyən müddətə yaradılır və Azərbaycan Respublikasının bütün ərazisində fəaliyyət göstərir.

1.5. AAF Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alındığı vaxtdan hüquqi şəxs statusu əldə edir.

1.6. AAF eyni zamanda "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununun tələbləri nəzərə alınmaqla ağırlıqqaldırma üzrə Respublika idman federasiyası kimi qeydiyyatdan keçir.

1.7. AAF-ın müstəqil balansı, üzərində adı yazılmış möhürü, ştampı, Azərbaycan Respublikasının banklarında hesablaşma hesabı və digər rekvizitləri vardır.

1.8. AAF Azərbaycan Respublikası Konstitusiyası, "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanunu, "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu, digər normativ hüquqi aktlar, fəaliyyət sahəsi üzrə beynəlxalq hüquqi aktlar və bu Nizamnaməyə uyğun olaraq fəaliyyət göstərir.

1.9. AAF Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının (IWF) və Avropa Ağırlıqqaldırma Federasiyasının (EWF) üzvüdür və fəaliyyətində bu beynəlxalq təşkilatların qaydalarına riayət edir.

## 2. AAF-ın rəsmi adı, ünvanı və dili

2.1. AAF-ın Azərbaycan dilində tam adı "Azərbaycan Ağırlıqqaldırma Federasiyası" ictimai birliyi, qısaldılmış adı isə AAF-dır.

2.2. AAF-ın İngilis dilində tam adı Azerbaijan Weightlifting Federation, qısaldılmış adı isə AWF-dir.

2.3. AAF-ın hüquqi ünvanı Bakı şəhəri, Fətəli Xan Xoyski prospekti 98 ünvanıdır.

## 3. AAF-ın rəmzləri

3.1. AAF-ın öz rəmzləri (bayrağı və emblemi) vardır.

3.2. AAF-ın bayrağı ağ fon üzərində onun embleminin təsvirindən ibarətdir.

## 4. AAF-ın məqsəd və vəzifələri.

4.1. AAF-ın məqsədi ağırlıqqaldırma idman növünün bütün yaş qrupları və cins tərkibi üzrə inkişaf etdirilməsidir.

4.2. AAF-ın vəzifələri aşağıdakılardır:

4.2.1. Azərbaycan Respublikasında idmanın, o cümlədən ağırlıqqaldırmanın inkişafı ilə bağlı müəyyən olunmuş əsas istiqamətlərə və prinsiplərə dəstək vermək;

4.2.2. Ağırlıqqaldırmanın inkişafı ilə bağlı kompleks proqramların hazırlanmasında, tətbiqində və icrasına nəzarətdə iştirak etmək;
4.2.3. Əhali arasında bədən tərbiyəsinin, idmanın, xüsusilə də ağırlıqqaldırmanın inkişafı ilə bağlı hökumət, qeyri-hökumət və digər təşkilatların, o cümlədən vətəndaşların səylərinin birləşdirilməsinə kömək etmək;
4.2.4. Ölkə ərazisində və onun hüdudlarından kənarda ağırlıqqaldırma ilə bağlı olan idman federasiyaları, assosiasiyalar, klublar və ictimai təşkilatlarla əlaqələr qurmaq və belə əlaqələri inkişaf etdirmək;
4.2.5. Ağırlıqqaldırma ilə məşğul olmaq üçün lazım olan zəruri şəraitin yaradılmasına dəstək vermək;
4.2.6. Ağırlıqqaldırma üzrə məşqçi işinin görülməsi ilə bağlı və digər peşəkar kadrların hazırlanmasına dair təşkilati işlərin görülməsinə kömək göstərmək, habelə məşqçi, hakim və digər mütəxəssislərin fəaliyyətinə nəzarət etmək;
4.2.7. Ağırlıqqaldırma üzrə idman klublarının, xüsusilə uşaq-gənclər idman məktəblərində fəaliyyət göstərən ağırlıqqaldırma idman növünün inkişafı ilə bağlı investisiyanın cəlb olunmasına səy göstərmək;
4.2.8. Müxtəlif xarakterli təlim-məşq toplanışlarını, o cümlədən idman-sağlamlıq tədbirlərini keçirmək;
4.2.9. İdman bazalarının, zallarının, obyektlərinin, qurğularının və binalarının istismarı, təmiri, rekonstruksiyası və tikintisində iştirak etmək və bu qəbildən olan işlərin görülməsini dəstəkləmək;
4.2.10. Ağırlıqqaldırma üzrə ölkədaxili və beynəlxalq yarışlar təşkil etmək, xarici ölkələrdə keçirilən yarışlarda yığma komandaların iştirakını təmin etmək;
4.2.11. Ölkə qanunvericiliyinə və beynəlxalq hüquqi aktlara uyğun olaraq dopinqdən və insan səhhətinə ziyan vuran metodlardan istifadəyə qarşı mübarizə aparmaq;
4.2.12. Fəaliyyəti ilə bağlı qanunvericiliklə müəyyən olunan hesabatları aidiyyəti dövlət qurumlarına təqdim etmək;
4.2.13. Ümumdünya Antidopinq Məcəlləsinin bütün tələblərinə hörmətlə yanaşılması və onlara riayət olunması üçün beynəlxalq federasiya və Azərbaycan Milli Antidopinq agentliyi ilə əməkdaşlıq etmək;
4.2.14. İdmanda dopinq vasitələri və (və ya) üsullarından istifadəyə, eləcə də idmanda ayrı-seçkilik və zorakılığa qarşı fəaliyyət göstərmək, mübarizə aparmaq;
4.2.15. "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununa və milli antidopinq qurumunun qaydalarına uyğun olaraq, idmançıya və ya onun köməkçi heyətinə sanksiya tətbiq edildiyi halda, həmin sanksiyaların icra olunmasını təmin etmək;
4.2.16. Antidopinq siyasətini və qaydalarını Ümumdünya Antidopinq Məcəlləsinə və Beynəlxalq Standartlara uyğun şəkildə qəbul etmək və tətbiq etmək;
4.2.17. Bu Nizamnamə və qanunvericilikdə müəyyən edilmiş digər vəzifələri icra etmək.

## 5. AAF-ın hüquqları.

5. AAF-ın hüquqları aşağıdakılardır:
5.1. Öz adından əqdlər bağlamaq, qanunvericiliyə uyğun olaraq əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh kimi çıxış etmək;
5.2. Öz fəaliyyəti haqqında sərbəst olaraq məlumat yaymaq;
5.3. Dövlət qurumlarında, yerli özünüidarəetmə orqanlarında və ictimai təşkilatlarda öz üzvlərinin qanuni maraqlarını təmsil və müdafiə etmək;
5.4. Öz səlahiyyətləri çərçivəsində ağırlıqqaldırma üzrə normativ hüquqi aktların və inkişaf proqramlarının işlənib hazırlanmasında və həyata keçməsində iştirak etmək;

5.5. Ağırlıqqaldırma üzrə ölkədaxili və beynəlxalq yarışlar təşkil etmək, onların ölkə və beynəlxalq reqlamentlərə müvafiq olaraq öz reqlamentini hazırlamaq və təsdiq etmək, qaliblərin mükafat fondunu təsis etmək;
5.6. Azərbaycan yığma komandalarının beynəlxalq idman yarışlarına hazırlanması məqsədilə müqavilə əsasında məşqçi heyəti, mütəxəssisləri, elmi-metodiki və digər mütəxəssisləri, o cümlədən əcnəbiləri cəlb etmək;
5.7. İdmançıların, hakimlərin, məşqçilərin və ağırlıqqaldırma üzrə digər mütəxəssislərin hazırlanması, əlavə təhsili və attestasiyası üzrə tədbirlər həyata keçirmək, o cümlədən onların peşəkar hazırlığı ilə bağlı proqramları hazırlamaq, təsdiq etmək və həyata keçirmək;
5.8. Azərbaycan yığma komandalarının tərkibində idman tədbirlərində iştirak etmələri şərtilə yığma komandalara üzv namizəd idmançılar ilə müqavilələri bağlamaq;
5.9. Azərbaycan yığma komandasının rəsmi dəst, o cümlədən çıxış üçün məcburi yarış formalarının təsdiq olunması;
5.10. Ağırlıqqaldırma idman növü üzrə idmançılara, məşqçilərə və hakimlərə bədən tərbiyəsi və idman sahəsində əldə etdikləri nəticələrə görə təsnifatların, fəxri adların və mükafatların verilməsi məqsədilə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə və Milli Olimpiya Komitəsinə təqdimatların verilməsi;
5.11. Azərbaycan yığma komandasının tərkibində beynəlxalq yarışlarda iştirak hüququna malik olmayan və beynəlxalq idman təşkilatlarının normalarına cavab verməyən idmançıların rəsmi ölkə yarışlarında iştiraklarına məhdudiyyətlərin qoyulması;
5.12. İdmançıların bədən tərbiyəsi-idman təşkilatının birindən digərinə keçməsi məsələlərinin təşkilində iştirak etmək;
5.13. Beynəlxalq idman təşkilatlarının reqlamentləri və qanunvericiliyin müddəaları əsasında ağırlıqqaldırma idman klublarının fəaliyyətinin əlaqələndirilməsində iştirak etmək;
5.14. Öz səlahiyyətləri çərçivəsində xarici ölkələrin idman təşkilatları və beynəlxalq idman təşkilatları ilə beynəlxalq əlaqələri inkişaf etdirmək və möhkəmləndirmək;
5.15. Bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə çatmaq üçün qanunla qadağan olunmayan mənbələrdən vəsaitlər qəbul etmək;
5.16. İdman yarışlarının işıqlandırılması ilə bağlı hüquqların üçüncü şəxslərə ötürülməsini həyata keçirmək;
5.17. Müstəqil olaraq öz daxili strukturunu, idarəetmə formasını, maliyyə planını və ştatını müəyyən etmək;
5.18. Bu Nizamnamənin 6-cı hissəsinə uyğun olaraq sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;
5.19. Azərbaycan Respublikasının ərazisində və xarici ölkələrdə filial və nümayəndəliklərini təsis etmək;
5.20. Bu Nizamnamə və qanunvericilikdə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 6. AAF-ın sahibkarlıq fəaliyyətinin əsasları

6.1. AAF Azərbaycan Respublikasının qanunvericiliyinə və bu Nizamnamənin məqsədlərinə uyğun olaraq təşkilatın yaradılması məqsədinə nail olmağa yönəlmiş sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.
6.2. AAF sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün təsərrüfat cəmiyyətləri yarada, təsərrüfat cəmiyyətlərinin fəaliyyətində iştirak edə və əmlak əldə edə bilər.
6.3. Sahibkarlıq fəaliyyətindən əldə edilən gəlir AAF-ın üzvləri arasında bölünə bilməz və yalnız bu Nizamnamə ilə müəyyən olunan məqsədlərə çatmaq üçün istifadə oluna bilər.

## 7. AAF-ın əmlakı və maliyyə mənbələri.

7.1. AAF-ın mülkiyyətində qanunvericiliklə qadağan olunmamış növlərdə əmlak ola bilər.

7.2. AAF öz öhdəliklərinə görə əmlakı ilə cavabdehdir. Bu əmlak yalnız Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq özgəninkiləşdirilə bilər.

7.3. AAF-ın əmlakının pul və digər şəkildə formalaşdırılma mənbələri aşağıdakılardır:

7.3.1. Üzvlərinin müntəzəm və ya birdəfəlik üzvlük haqları;

7.3.2. Əmlak haqları və könüllü ianələri;

7.3.3. Malların satışından, xidmətlər göstərilməsindən, işlər görülməsindən daxilolmalar;

7.3.4. Səhmlər, istiqrazlar, başqa qiymətli kağız və əmanətlərdən alınan dividendlər, gəlirlər;

7.3.4. Öz əmlakından istifadə və onun satılması nəticəsində əldə edilən gəlirlər;

7.3.5. Qrantlar;

7.3.6. qanunvericiliklə qadağan olunmayan başqa gəlirlər.

7.4. AAF-ın bütün əmlakı yalnız bu Nizamnamə ilə müəyyən olunan məqsədlərə çatmaq üçün istifadə oluna bilər.

## 8. AAF-da üzvlük (Təsisçilər və üzvlər)

8.1. AAF-ın təsisçiləri dövlət hakimiyyəti və yerli özünü idarə orqanları istisna olmaqla hüquqi şəxslər və 18 yaşına çatmış fiziki şəxslər ola bilərlər.

8.2. Təsisçilər bərabər hüquqlara malikdirlər. Onların qarşılıqlı hüquq və vəzifələrinin həcmi AAF-ın təsis edilməsinə münasibətdə təsis müqaviləsi ilə (müqavilə bağlandıqda), AAF-nın fəaliyyətində iştiraka münasibətində isə bu Nizamnamə ilə müəyyən edilir.

8.3. Təsisçilər eyni zamanda üzvlər hesab olunurlar və üzvlüklə bağlı bütün hüquq və vəzifələrə malikdirlər.

8.4. Hər bir fiziki və hüquqi şəxs (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) AAF-ın üzvü ola bilər.

## 9. Üzvlüyə qəbul

9.1. Üzvlüyə qəbul edilmək istəyən şəxs yazılı ərizə ilə İdarə Heyətinin sədrinə müraciət edir.

9.2. Ərizədə AAF-a üzvlük məqsədi qeyd edilməlidir. Ərizəyə fiziki şəxslərə münasibətdə şəxsiyyəti təsdiq edən sənədin surəti, hüquqi şəxslərə münasibətdə dövlət reyestrindən çıxarışın notariat qaydasında təsdiqlənmiş surəti əlavə olunmalıdır.

9.3. Ərizəyə 1 (bir) ay müddətində İdarə Heyətinin sədri tərəfindən baxılır və müvafiq qərar qəbul edilir.

## 10. Üzvlərin hüquq və vəzifələri

10.1. Üzvlər bərabər hüquqlara malikdirlər. Onların qarşılıqlı hüquq və vəzifələri qanunvericiliklə və bu Nizamnamə ilə müəyyən edilir.

10.2. Üzvlərin hüquqları aşağıdakılardır:

10.2.1. AAF-ın fəaliyyətində və təşkil etdiyi tədbirlərdə iştirak etmək;

10.2.2. Bu Nizamnamədə və digər sənədlərdə nəzərdə tutulmuş qaydada təşkilatın idarəçiliyində iştirak etmək, AAF-ın seçkili orqanlarına seçmək və seçilmək;

10.2.3. AAF-ın fəaliyyəti haqqında AAF-ın rəsmi orqanlarının vasitəsilə və ya qanunla yol verilən qaydada məlumat almaq;

10.2.4. AAF-ın istənilən orqanına müraciət etmək;

10.2.5. Onun hüquq və vəzifələri ilə bağlı hər hansı məsələnin müzakirəsində şəxsən iştirak etmək;

10.2.6. AAF-ın orqanlarının qərarlarından ümumi yığınacağa, məhkəməyə və ya inzibati qaydada aidiyyəti qurumlara şikayət etmək;

10.2.7. Bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

10.3. Üzvlərin vəzifələri aşağıdakılardır:

10.3.1. Bu Nizamnaməyə və AAF-ın orqanlarının qərarlarına riayət etmək;
10.3.2. Üzvlük haqlarını vaxtında ödəmək.
10.4. AAF-ın üzvü yalnız AAF-ın müvafiq orqanları səlahiyyət verdikdə həmin orqanı təmsil edə və ya onun adından çıxış edə bilər.
10.5. Üzvlük haqqının miqdarı və ödənilməsi qaydası İdarə Heyəti tərəfindən müəyyən edilir.

## 11. Üzvlüyə xitam verilməsi

11.1 Üzvlüyə könüllü qaydada, üzvlükdən xaric edilmə və ya üzvlüyün itirilməsi yolu ilə xitam verilir.
11.2. Könüllü qaydada üzvlükdən çıxmaq istəyən şəxs bu barədə ən azı 10 (on) gün əvvəldən yazılı ərizə ilə İdarə Heyətinin sədrinə müraciət edir. İdarə Heyətinin sədri 3 (üç) gün müddətində şəxsin üzvlüyünə xitam verilməsi barədə qərar qəbul edir.
11.3. Üzv aşağıdakı hallarda üzvlükdən xaric edilir:
11.3.1. Bu Nizamnaməni və AAF-ın qərarlarını kobud şəkildə pozduqda;
11.3.2. Üzvlük haqqını müəyyən edilmiş vaxtdan 2 (iki) ay müddətində gecikdirdikdə;
11.3.3. AAF-ın əmlakına ziyan vuran və ya nüfuzuna xələl gətirən hərəkətlərə yol verdikdə;
11.4. Üzvlükdən çıxarılma İdarə Heyətinin sədrinin qərarı ilə həyata keçirilir. Barəsində qərar çıxarılan şəxsin həmin qərardan rəsmi məlumatlandırıldığı tarixdən 30 (otuz) gün müddətində ümumi yığıncağa və/və ya qanunvericiliklə nəzərdə tutulmuş qaydada məhkəməyə şikayət vermək hüququ vardır.
11.5. Üzvlük aşağıdakı hallarda itirilir:
11.5.1. Fiziki şəxs vəfat etdikdə və məhkəmə qaydasına xəbərsiz itkin düşmüş və ya ölmüş elan edildikdə;
11.5.2. Hüquqi şəxs ləğv edildikdə;
11.5.3 Öz səlahiyyətlətini daimi icra edə bilmədikdə.
11.6. Üzvlüyün itirilməsi barədə qərarı İdarə Heyətinin sədri qəbul edir.
11.7. Üzvlüyə xitam verilməsi şəxsi AAF qarşısında icra edilməyən öhdəliklərdən azad etmir.

## 12. AAF-ın idarə olunması

12.1. AAF-ın idarəetmə orqanları Ümumi yığıncaq, İdarə Heyəti və Nəzarət-təftiş komissiyasıdır.
12.2. AAF-ın ali orqanı ildə bir dəfədən az olmayaraq çağırılan və bütün üzvlərin təmsil olunduğu Ümumi yığıncaqdır.
12.3. Ümumi yığıncaq İdarə Heyətinin, təsisçilərdən birinin və ya üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılır.
12.4. Ümumi yığıncağın üzvlərinə ümumi yığıncağın yeri, vaxtı və gündəliyi haqqında 2 (iki) həftə əvvəlcədən məlumat verilməlidir.
12.5. Ümumi yığıncağın gündəliyi onu çağıran şəxs(lər) tərəfindən müəyyən edilir.
12.6. Ümumi yığıncağın səlahiyyətlərinə aşağıdakılar aiddir:
12.6.1. AAF-ın Nizamnaməsinin qəbulu və ona dəyişikliklərin edilməsi;
12.6.2. AAF-ın əmlakının formalaşma və istifadə prinsiplərinin müəyyən edilməsi;
12.6.3. İdarə Heyətinin sədrinin və üzvlərinin seçilməsi və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;
12.6.4. İllik hesabatın təsdiq edilməsi;
12.6.5. Başqa təşkilatlarda iştirak;
12.6.6. AAF-ın yenidən təşkili və ləğv edilməsi;
12.6.7. İdarə Heyətinin hesabatlarının dinlənilməsi;
12.6.8. Bu Nizamnamə ilə müəyyən edilmiş digər səlahiyyətlərin həyata keçirilməsi.
12.7. Ümumi yığıncaq yalnız üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətli hesab olunur. Qərarlar açıq səsvermə ilə iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. Hər

bir üzv bir səsə malikdir. Nizamnaməyə dəyişikliklərin edilməsi, hüquqi şəxsin yenidən təşkili və ləğvi barədə qərarın qəbulu üçün 2/3 (üçdə iki) səs çoxluğu tələb olunur

12.8. Ümumi yığıncağa İdarə Heyətinin sədri və ya onun təklifi əsasında digər üzv sədrlik edir. Sədrlik edən iclasın gündəliyinə uyğun şəkildə aparılmasına cavabdehdir. Çıxışlar zamanı nümayəndələr və dəvət olunanlar gündəliyin pozulmasına yol verdikləri halda onların çıxışlarını sədrlik edən dayandıra bilər.

12.9. Qəbul edilmiş qərarlar sədrlik edən və digər iştirak edən üzvlər tərəfindən imzalanır.

12.10. Ümumi yığıncaqda yazılı protokol aparılmalıdır. Protokol yığıncağın sədri və katibi tərəfindən imzalanır. Ümumi yığıncağın protokolu lazım gəldikdə bütün üzvlərə paylanılmalıdır.

## 13. İdarə Heyətinin tərkibi

13.1. AAF-a cari rəhbərliyi həyata keçirən icra orqanı 4 (dörd) il müddətinə seçilən İdarə Heyətidir.

13.2. İdarə Heyəti kollegial icra orqanı olub sədr, sədrin üç müavini və digər üzvlərdən ibarətdir.

13.3. İdarə Heyətinin sədri eyni zamanda federasiyanın prezidenti, onun müavinləri isə vitse-prezidenti hesab olunur.

13.4. İdarə Heyətinin say tərkibi sədr daxil olmaqla 9 (doqquz) nəfərdən artıq olmamalıdır.

13.5. İdarə Heyətinin tərkibinə İdarə Heyətinin sədri, İdarə Heyətinin sədrinin 3 (üç) müavini və ümumi yığıncaq tərəfindən İdarə Heyətinə seçilmiş digər üzvlər daxildir.

13.6. İdarə Heyətinin sədri İdarə Heyətinin üzvləri sırasından seçilir.

13.7. İdarə Heyətinin sədri digər üzvlərin seçilməsi ilə bağlı Ümumi yığıncağa namizədlər irəli sürə bilər.

## 14. İdarə Heyətinin iclasları

14.1. İdarə Heyətinin iclasları 3 (üç) ayda bir dəfədən az olmamaqla keçirilir.

14.2. İdarə Heyətinin iclasları aşağıdakı hallarda çağırılır:

14.2.1. Sədrin və ya digər üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə;

14.2.2. İdarə Heyətinin hər növbəti iclası üçün müəyyən edilən vaxtda sədr tərəfindən;

14.3. İdarə Heyətinin iclası haqqında sədr və ya onun müavinləri tərəfindən İdarə Heyətinin hər bir üzvünə iclasın başlanmasına azı 7 (yeddi) gün qalmış sifarişli poçt göndərişi (məktubu) və ya elektron poçt vasitəsilə məlumat verilməlidir. Məlumatda iclasın keçirilmə tarixi, yeri və gündəliyi göstərilməli, habelə gündəliyə dair materiallar əlavə edilməlidir.

14.4. İclasın gündəliyi onu çağıran şəxs tərəfindən müəyyən edilir.

14.5. İclasın keçirilmə tarixi və yeri AAF-ın rəsmi internet səhifəsində dərc olunur.

14.6. İdarə Heyətinin üzvləri İdarə Heyətinin iclaslarında iştirak etməlidir. Üzrlü səbəbdən iştirak edə bilməyən üzv bu barədə sədrə iclasa ən azı 1 (bir) gün qalmış məlumat verməlidir.

14.7. İclaslar İdarə Heyəti üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətli sayılır.

14.8. İclaslar sədr və ya onun təklifinə əsasən digər üzv tərəfindən aparılır.

14.9. İclaslarda üzvlərin təklifi ilə gündəlikdən kənar məsələlərə də baxıla bilər.

14.10. İdarə Heyətinin qərarları açıq səsvermə ilə sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səsə malikdir. Səslər bərabər olduqda sədrin səsi həlledici sayılır. Qərarlar iclasa sədrlik edən və iştirak edən digər üzvlər tərəfindən imzalanır.

## 15. İdarə Heyəti üzvünün səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi

15.1. İdarə Heyətinin üzvü səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi, yəni İdarə Heyəti üzvlüyündən istefa verməsi barədə ərizə ilə sədrə və ya birbaşa ümumi yığıncağa müraciət edə bilər. Sədr ərizənin ona daxil olduğu gündən 3 (üç) gün müddətində İdarə Heyətinin qərarı ilə bu Nizamnəməyə uyğun olaraq ümumi yığıncağı çağırır.

15.2. Üzrsüz səbəbdən İdarə Heyətinin iclaslarında iki dəfə iştirak etməyən üzvün səlahiyyətlərinə vaxtından əvvəl xitam verilə bilər. Bu məsələ sədrin təşəbbüsü və İdarə Heyətinin qərarı ilə bu Nizamnamənin 15.1-ci bəndinə uyğun olaraq Ümumi yığıncağa çıxarılır.

## 16. İdarə Heyətinin səlahiyyətləri

16.1. İdarə Heyətinin səlahiyyətləri aşağıdakılardır:

16.1.1. İdarə Heyəti sədrinin təklifləri əsasında Baş katibin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

16.1.2. Ümumi yığıncağın səlahiyyətlərinə aid olan məsələlər üzrə təkliflərin verilməsi;

16.1.3. Ümumi yığıncağa təqdim edilməsi məqsədilə hesabatların hazırlanması;

16.1.4. Azərbaycan yığma komandalarının baş məşqçilərinin və baş məşqçilərin təklifi ilə məşqçilərin və digər mütəxəssis heyətinin təsdiq olunması;

16.1.5. Azərbaycan yığma komandalarına və olimpiya yığmasına idmançıların seçim meyarlarının təsdiq edilməsi;

16.1.6. Azərbaycan yığma komandalarının heyətlərinin formalaşdırılması və təsdiq üçün təqdim olunması;

16.1.7. Növbəti il üçün respublika və beynəlxalq yarışların vahid təqvim planınının hazırlanması və təsdiq üçün Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə təqdim olunması;

16.1.8. Rəsmi beynəlxalq idman yarışlarına idmançıların hazırlıq keçmələrinin təşkilini təmin etmək məqsədilə namizəd idmançılardan ibarət əsas və ehtiyat heyətlərinin, habelə baş hakimlər kollegiyasının heyətinin siyahısının formalaşdırılması və təsdiq üçün Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinə təqdim edilməsi;

16.1.9. İllik büdcənin təsdiq edilməsi;

16.1.10. AAF-nın ittifaqlara, assosiasiyalara, beynəlxalq idman təşkilatlarına və digər bədən tərbiyəsi və idman təşkilatlarına qəbul olunması və çıxması haqqında qərarın qəbul edilməsi;

16.1.11. Bu Nizamnamə və qanunvericiliklə AAF-ın başqa idarəetmə orqanlarının səlahiyyətlərinə aid edilməyən digər məsələlərin həll edilməsi;

16.1.12. Üzvlük haqqının miqdarı və ödənilməsi qaydasının müəyyən edilməsi.

## 17. İdarə Heyətinin sədrinin və onun müavinin səlahiyyətləri

17.1. İdarə Heyətinin sədrinin səlahiyyətləri aşağıdakılardır:

17.1.1. AAF-ın təmsil edilməsi, onun adından əqdlər bağlanılması və digər hüquqi hərəkətlərin yerinə yetirilməsi, sənədlərin imzalanması;

17.1.2. AAF-a üzvlüyə qəbul və üzvlükdən azad edilmə;

17.1.3. AAF-ın Baş katibinə və İdarə Heyətinin istənilən üzvünə İdarə Heyətinin sədri səlahiyyətlərinin ötürülməsi;

17.1.4. İdarə Heyətinin iclaslarının çağırılması;

17.1.5. Ümumi yığıncağın və İdarə Heyətinin iclaslarına sədrlik edilməsi;

17.1.6. Ümumi yığıncağın və İdarə Heyətinin qərarlarının yerinə yetirilməsinin təmin edilməsi;

17.1.7. İdarə Heyətinin iclaslarının keçirildiyi dövrlər arasında AAF-a cari rəhbərliyin həyata keçirilməsi;

17.1.8. Təsdiq edilmiş büdcəyə uyğun olaraq AAF-ın gəlir və xərclərinin cari qaydada idarə edilməsi;

17.1.9. AAF-ın filiallarının yaradılması və nümayəndəliklərinin açılması;

17.1.10. AAF-ın aidiyyəti qurum və tədbirlərdə təmsil edilməsi məqsədilə nümayəndələrinin təyin edilməsi;

17.1.11. Baş katibin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə bu Nizamnamənin 16.1.1-ci yarımbəndinə uyğun olaraq təklif irəli sürülməsi;

17.1.12. AAF-ın müvafiq qaydada qəbul edilmiş qərarların icrasına nəzarət edilməsi;

17.1.13. Təyin edilməsi bu Nizamnamə ilə Ümumi yığıncaq və İdarə Heyətinin səlahiyyətlərinə aid edilməmiş vəzifələr üzrə təyinatların həyata keçirilməsi;

17.1.14. Bu Nizamnamə ilə müəyyən edilmiş digər səlahiyyətlərin həyata keçirilməsi.

17.2. İdarə Heyətinin sədrinin müavinləri sədr tərəfindən onlara verilmiş səlahiyyətləri həyata keçirir və tapşırıqları yerinə yetirir.

## 18. Baş katib

18.1. Baş katib İdarə Heyətinin sədrinin təklifi əsasında İdarə Heyəti tərəfindən 4 (dörd) il müddətinə təyin edilir və aşağıdakı vəzifələri icra edir:

18.1.1. AAF-ın üzvlərinin qeydiyyatının aparılması;

18.1.2. Üzvlük haqlarının ödənilmə vəziyyətinin qeydə alınması;

18.1.3. Kargüzarlıq işinin təşkili;

18.1.4. Ümumi yığıncağın və İdarə Heyətinin iclaslarının protokollaşdırılması;

18.1.6. Ümumi yığıncağın, İdarə Heyətinin və İdarə Heyətinin sədrinin bu Nizamnaməyə uyğun olaraq verdiyi tapşırıqların icrası;

18.1.5. Bu Nizamnamə ilə müəyyən edilmiş digər səlahiyyətlərin həyata keçirilməsi.

18.2. Baş katib vəzifəyə təyin edildikdən sonra vəzifənin ictimai əsaslarla icra edilməsi halları istisna olmaqla, onunla əmək müqaviləsi bağlanılır.

18.3. Baş katib ümumi yığıncağın birbaşa tapşırıqlarının icrası istisna olmaqla öz vəzifələrinin icrası üçün İdarə Heyətinin sədri qarşısında məsuliyyət daşıyır və ona hesabat verir.

## 19. Nəzarət-təftiş komissiyası

19.1. Nəzarət-təftiş komissiyası (NTK) AAF-ın maliyyə fəaliyyəti üzərində nəzarəti həyata keçirən kollegial orqandır.

19.2. NTK üzvlərinin sayı tək rəqəmli olmaqla ümumi yığıncaq tərəfindən müəyyən edilir. NTK-nın üzvləri və sədri ümumi yığıncaq tərəfindən 4 (dörd) il müddətinə seçilir. İdarə Heyətinin üzvləri və Baş katib NTK-nın üzvü ola bilməzlər.

19.3. NTK-nın qərarları sadə səs çoxluğu ilə qəbul edilir.

## 20. AAF-nın yenidən təşkili və ləğvi.

20.1. AAF-ın könüllü qaydada yenidən təşkili və ləğv olunması ilə bağlı qərar Ümumi yığıncaqda üzvlərin üçdə iki səs çoxluğu ilə qəbul edilir.

20.2. AAF ləğv olunduğu halda ləğvetmə komissiyası yaradılır. Ləğvetmə komissiyası öz işini qanunvericiliyə əsasən həyata keçirir.

20.3. Ləğvetmə nəticəsində onun borclarının ödənilməsindən sonra qalan əmlak üzvlər arasında bölüşdürülmür və bu Nizamnamədə nəzərdə tutulan fəaliyyət məqsədlərə bu mümkün olmadıqda dövlət büdcəsinə yönəldilir.

20.4. Yenidən təşkil və ləğv ilə əlaqədar digər məsələlər Azərbaycan Respublikasının Mülki Məcəlləsi, “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanunu və digər qanunvericilik aktlarına uyğun həll edilir.

## 21. Mübahisələrin həlli.

AAF ilə onun üzvləri arasında yaranan mübahisələr qüvvədə olan Azərbaycan Respublikasının qanunvericiliyə uyğun olaraq həll olunur.

## 22. Digər şərtlər.

22.1. Bu Nizamnamə və ona edilən sonrakı dəyişikliklər dövlət qeydiyyatına alındığı andan qüvvəyə minir.

22.2. Bu Nizamnamədə nəzərdə tutulmayan məsələlər qanunvericiliklə tənzimlənir.

22.3. Bu Nizamnamənin müddəaları ilə qanunvericilik arasında ziddiyyət yaranarsa qanunvericiliyin müddəaları tətbiq edilir.

22.4. AAF-ın maliyyə ili "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilir. Maliyyə ili 1 yanvarda başlayır və dekabr ayının 31-dək olan dövrü əhatə edir.

* * *